# Bakıda ilk ictimai kitabxana-qiraətxana

**XIX əsrin axırlarında Azərbaycanda kitabxana işi tarixində mühüm hadisə baş verdi. 1894-cü ildə Bakıda görkəmli yazıçı, ictimai və dövlət xadimi Nəriman Nərimanov ilk ümumi açıq milli Azərbaycan kitabxana-qiraətxanasının əsasını qoydu.**

Bu Azərbaycan xalqının mədəni və ictimai həyatında görkəmli hadisələrdən biri idi. 1891-ci ildə Bakıya gəlib müəllimlik edən N.Nərimanov xalqın zülm və əsarət altında yaşamasının və onu bu zülmdən xilas etmək yolunu maarifdə görürdü. Milli xalq kitabxana-qiraətxanası yaratmaq fikrinə düşən Nəriman Nərimanov görkəmli ziyalılardan S.M.Qənizadə, H.Mahmudbəyov, S.Vəlibəyov, Ə.Axundov, Ə.Cəfərzadənin yaxından köməyi ilə Xaqaninin, Nizaminin, Füzulinin, Sədinin, Hafizin, Firdovsinin, A.Bakıxanovun, M.F.Axundovun, M.P.Vaqifin, Q.Zakirin, S.Ə.Şirvaninin və b. əsərlərini, həmçinin jurnal və qəzet komplektlərini toplamağa başladı. Kitabxana-qiraətxananı açmaq üçün müəyyən hazırlıq işi görüldükdən sonra, Bakı qubernatorunun icazəsi ilə 1894-cü il, avqustun 1-də kitabxana-qiraətxana fəaliyyətə başladı.

O dövrdə kitabxana-qiraətxananı lazımi ədəbiyyatla təmin etmək olduqca çətin idi. Bir tərəfdən Bakıda qəzet və kitab nəşrinin az olması və mütərəqqi qəzet və kitabların yoxluğu, digər tərəfdən də lazımi maddi vəsaitin olmaması kitabxananın təkmilləşməsi işini çətinləşdirirdi. Tez bir müddətdə Nərimanov Hindistan, Misir, Bolqarıstan, Türkiyə, İran və başqa ölkələrin nəşriyyatları və Rusiyanın bir çox şəhərləri ilə əlaqə yaratmağa müvəffəq oldu. Qəzet və kitabların çoxu milyonçu H.Z.Tağıyevin hesabına alınırdı.

Qiraətxanaya giriş haqqı 2 qəpik idi. Oxucuların suallarına tez və vaxtında cavab vermək üçün kataloq düzəldilmişdi. Kilabxanaçı-qiraətxanaçı vəzifəsində Nərimanovun ən yaxın silahdaşlarından olan, öz işini sevən Əlisgəndər Cəfərov işləyirdi. Kitabxana-qiraətxananın fəaliyyətə başladığı ilk vaxtlar bir ay ərzində kitabxanaya 710 nəfər oxucu gəlmiş, bunlardan 151 nəfəri azərbaycanlı, digər qismi isə müxtəlif millətlərin nümayəndələri idi. Bu da o zaman Zaqafqaziya kitabxanalarının heç birinin malik olmadığı bir rəqəm idi.

Kitabxana təkcə qəzet, jurnal, kitab verməklə kifayətlənmir, həm də geniş kütləvi iş aparırdı. Kitabxananın yanında gənc ədəbiyyat həvəskarlarının, gənc aktyorların dərnəkləri təşkil edilmişdi. Dərnəklərdə həm bədii əsərlər oxunub müzakirə edilmiş, həm də Azərbaycanın teatr mədəniyyəti tarixində xüsusi rol oynamış bir neçə əsər tamaşaya qoyulmuşdu. Tamaşalardan toplanılan pullar qiraətxanaya verilmişdi. Dərnəklərin fəaliyyətində N.Nərimanov yaxından iştirak etmişdi.

Bu xeyirxah və mütərəqqi iş heç də hamı tərəfindən rəğbətlə qarşılanmırdı. Zəhmətkeş xalq kütlələrinin gözünün açılmasından qorxuya düşən çar məmurları, burjua ziyalıları, ruhanilər, köhnə fikirli adamlar bu gözəl mədəni-maarif müəssisəsinə qarşı mübarizəyə başladılar. Çox ağır şəraitdə cəmi 4 il fəaliyyət göstərdikdən sonra gözəl mədəni-maarif müəssisəsi olan kitabxana-qiraətxana 1898-ci ildə çar hökuməti tərəfindən bağlandı.

Nəriman Nərimanovun ilk ümumi açıq milli kitabxana-qiraətxanası çox az bir müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, ölkənin mədəni inkişafında, Azərbaycan xalqının milli şüurunun yüksəlməsində, təhsil və tərbiyəsində çox mühüm rol oynamışdır.

**● Aidə ABDULLAYEVA**